*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***10 (1) 2023***
*https://doi.org/ 10.46868/atdd.2023.*




***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received :20.07.2023***
***Kabul tarihi |Accepted: 25.07.2023***
***Yayın tarihi |Published : 25.08.2023***



**İlham Həsənov**

*https://orcid.org/0000-0003-0465-5111*
*Azerbaijan National Academy of Sciences A. A. Bakikhanov Institute of History leading researcher, doctor of philosophy in historyAzerbaijan, ilham24051958@gmail.com*

***Atıf Künyesi | Citation Info***
Həsənov, İ. (2023). Heydər Əliyev və Azərbaycanda Tibb Elmi. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 298-311.

# Heydər Əliyev və Azərbaycanda Tibb Elmi

***Xülasə***

*Məqalədə Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin rəhbərliyi altında istər Sovet, istərsə də müstəqil Azərbaycan səhiyyəsində aparılan islahatlar nəticəsində əhaliyə göstərilən tibbi xidmətin xeyli yaxşılaşdırılması, səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, əsas dərmanlarla təchizinin təmin edilməsi, kadrların ixtisasının artırılması, müasir çağırışlara cavab verən tibb müəssisələrinin əhalinin istifadəsinə verilməsinin fonunda Azərbaycanda təbabət elminin əsas tədqiqat aspektləri nəzərdən keçirilmişdir.*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, tibb*

# Heydar Aliyev and Medical Science in Azerbaijan

**Abstract**

*In the article, as a result of the reforms carried out in the health care of both Soviet and independent Azerbaijan under the leadership of the great leader of the Azerbaijani people, Heydar Aliyev, the medical service provided to the population has been significantly improved, the legal and normative basis of health care has been improved, the material and technical base of medical institutions has been strengthened, the supply of basic drugs has been ensured, the qualification of personnel has been improved. The basic research aspects of the science of demand in Azerbaijan were considered against the background of increasing, providing medical facilities that meet modern challenges of the population.*

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan, medicine*

## Giriş

Dünyanı bürümüş koronovirus pandemiyası səhiyyə sahəsinin və onun tibb elminin daha mobil xarakter kəsb etməsinin zəruriliyini bütün kəskinliyi ilə ortaya qoymuşdur. Ona görə də tibb elminin tarixini izləmək və ondan müvafiq ibrət götürmək bu gün, xüsusilə, aktualdır. Heydər Əliyevin rəhbərliyi və bilavasitə himayəsi ilə tibb elminin inkişaf aspektlərinin nisbətən ətraflı nəzərdən keçirməsinə həsr olunmuş məqalə elə bu məqsədlə yazılmışdır. Azərbaycan xalqı çoxlu sayda bəşəri dahilər yetişdirmişdir. Onlardan biri də Heydər Əliyevdir.

Azərbaycan xalqının görkəmli siyasi və dövlət xadimi, çağdaş tariximizin yaradıcısı, XX əsrin sonlarında Azərbaycan dövlətçiliyinin qorunub-saxlanılmasında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin səhiyyə sahəsinə dair nəzəri baxışlarını və əməli fəaliyyətini təhlil edərkən, onun sözün həqiqi mənasında, xalq səhiyyəsinin yaradıcısı olması qənaətinə gəlmək olar. Azərbaycanı keçmiş sovetlər məkanında olan başqa dövlətlərlə müqayisə etsək, görərik ki, səhiyyəmizin uğurları da, elmi nailiyyətləri də, maddi-texniki bazası da, kadr potensialı da, peşəkarlıq səviyyəsi də xeyli üstündür. Bunun yeganə səbəbi ondan ibarətdir ki, 1969-1982-ci illərdə respublikamıza rəhbərlik edərkən, eləcə də, 1982-1987-ci illərdə SSRİ-nin rəhbərlərindən biri olarkən Heydər Əliyev səhiyyəmizə bünövrəsini qoymuş, daim diqqət göstərmiş onun yüksəlişini, tərəqqisini təmin etmiş, həmçinin 1993-cü ildə yenidən respublika rəhbəri olduqdan sonra təbabətin hərtərəfli inkişafı üçün dövlət səviyyəsində bütün mümkün tədbirləri həyata keçirmişdir. Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətləri tədqiq edilərkən onun gördüyü işləri xronoloji qaydada işıqlandırmaq zərurəti yaranır. "Heydər Əliyev və Azərbaycan tibb elmi" mövzusu da məsələyə bu kontekstdən yanaşmağı tələb edir. Qeyd

etmək lazımdır ki, ötən əsrin 60-cı illərinin axırları – 70-ci illərinin əvvəllərində bütövlükdə SSRİ-də olduğu kimi, Azərbaycan cəmiyyətində, o cümlədən, tibb sahəsində real vəziyyət qənaətbəxş deyildi. Sovet idarəçilik sisteminin hökmranlığı şəraitində olsa da heç də mümkün vasitələrinin hamısından yetirincə istifadə olunmamışdır.

O dövrdə yaranmış şəraitə diqqətlə nəzər salarkən yəqin etmək olur ki, onun həllini tələb edən problemlər var idi. Belə ki, bir sıra yoluxucu xəstəliklər, o cümlədən vərəm, malyariya, difteriya, poliomielit, məxmərək və başqa xəstəliklər geniş yayılmışdı. Onlara qarşı fəal mübarizə aparmaq üçün əhalini kütləvi immunlaşdırmaq, ana və uşaqların sağlamlığına qayğını artırmaq, narkomaniyanın inkişafına sipər çəkmək, güclü tibbi xidmət şəbəkəsi yaratmaq, təbabət elmini inkişaf etdirmək lazım idi. Heydər Əliyev məhz belə bir dövrdə respublikaya rəhbərlik etməyə başladı. XX əsrin 60-cı illərinin axırları – 70-ci illərinin əvvəlləri xalqımızın tarixinə Heydər Əliyevin əli ilə yazılmağa başlamış çox mürəkkəb, lakin parlaq səhifə kimi daxil olmuşdur. Bu illər – Heydər Əliyev erası idi, xalqın taleyində və deməli onun səhiyyə sistemində də yeni dövr idi. Bu dövrdə Azərbaycanda ictimai və mənəvi həyatın bütün sahələrində də yüksəliş prosesləri başladı.

Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə kadrların keyfiyyəti məsələsinə xüsusi diqqət yetirmişdir. Onun fikrincə, insanların sağlamlığı ilə məşğul olacaq şəxslərin səhv etməyə haqları yoxdur. Adamların sağlamlığı keşiyində duran şəxslərin yol verdikləri kobud bir səhv cinayətə bərabər tutulmalıdır. O, Azərbaycan Dövlət Tibb İnstitutunun professor-müəllim heyəti və tələbələri ilə görüşündə bu fikri bir daha təkrarlamışdı: "Sizin zay məhsul – biliksiz həkim buraxmağınız ağır nəticələr verir. Cəmiyyət qarşısında məsuliyyət hər birinizdən tələb edir ki, son dərəcə səmərəli işləyəsiniz ki, hər bir məzununuz yüksək dərəcəli mütəxəssis olsun". Uzaqgörənliklə söylədiyi bu fikir təkcə dünən üçün yox, sabaha da hesablanmışdır. Çünki sabah üçün hazırlanacaq kadrların bünövrəsi bu gündən qoyulur. Ona görə, kadrların hazırlığı vaxtında dünya standartlarına uyğun qurulmalıdır ki, xalqımız sabah yol ayrıcında qalmasın.

O vaxtlar respublikanın elmi-tədqiqat tibb institutlarında elmi işçi potensialını yeniləşdirmək məsələsi də bir problem kimi qarşıda durmuşdu. Çünki artıq elə bir məqam çatmışdı ki, yaşlı alimlər nəsli yeniləri ilə əvəz olunmalı idi. Daha dəqiq desək yaşlı alimlər nəslini əvəz edəcək gənc alimlər yetişdirilməli idi. Totalitar rejimin tüğyan etdiyi həmin dövrlərdə bunu etmək o qədər də asan deyildi. Bunu ancaq yüksək dövlət səviyyəsində, Moskva vasitəsilə gerçəkləşdirmək olardı. Heydər Əliyev mövcud problemin həllini elə bu istiqamətdə qoydu. 1970-1980-ci illərdə o, böyük çətinliklər bahasına Azərbaycan üçün

doktorantura yaradılmasına nail oldu. Məhz bunun sayəsində də Azərbaycanda 30-a yaxın gənc alim müxtəlif ixtisaslar üzrə doktorluq dissertasiyası üzərində işləmək üçün SSRİ-nin müxtəlif şəhərlərinə ezam olundular (ARPİİSSA, f.1, s.26, iş 109, v.11). Həmin gənc alimlər göstərilən etimadı doğrultdular və doktorluq dissertasiyalarını uğurla müdafiə edərək Azərbaycana qayıtdılar. Heç bir şəkki-şübhə yoxdur ki, hazırda respublika Səhiyyə Nazirliyinin elmi-tədqiqat institutlarında, nazirliyin və tibb müəssisələrinin strukturlarında, rəhbərliyində işləyənlərin, yeni iqtisadi şəraitdə səhiyyədə köklü islahatlar aparılmasında, tibbi xidmətin yüksəldilməsində çalışanların əksəriyyəti məhz həmin kadrlar oldular.

“Kadrların mühüm tərbiyə vasitəsi rəhbərin şəxsi nümunəsidir, həm də onun möhkəm ideya əqidəsidir, biliyidir, işgüzarlığıdır və aydın məqsədli olmasıdır”, bir də “bilmək üçün oxuyun, bacarmaq üçün oxuyun, yaşamaq üçün oxuyun, qəlbinizə və ruhunuza yaxın olan nə varsa, onların uğrunda mübarizə aparmaq üçün oxuyun” (ARPİİSSA, iş 26, v. 71). Heydər Əliyevin rəhbər işçilər, tələbə və aspirantlarla görüşü zamanı dediyi bu müdrik kəlamları o vaxt rəhbərin nitqini dinləyənlərin fəaliyyət proqram oldu.

Heydər Əliyevin məxsusi diqqəti və dəstəyi ilə respublikamızda təbabət elminin müxtəlif sahələrinə dair qurultay, konfrans və digər forumların keçirilməsi elmi-eksperimental təbabətin nailiyyətlərinin praktikada tətbiq edilməsi üçün geniş imkanlar açdı. Yüksək hazırlıqlı tibbi kadrların imkan və bacarıqlarını səfərbər etmək, həmçinin elmi potensiallarını üzə çıxarmaq məqsədilə o, təbabətin müxtəlif sahələrinə dair qurultay və konfransların keçirilməsini planlaşdırır və müvəffəqiyyətlə həyata keçilirdi. Məsələn, Heydər Əliyevin tövsiyələrinə uyğun olaraq, ilk dəfə Azərbaycanda neftçıxarma və neft sənayesi işçiləri arasında allergiya və şişlərin, eləcə də Naftalan neftinin bioloji təsirinin öyrənilməsinə dair tədqiqatlar aparıldı və nəticədə respublikamızda peşə xəstəliklərinə tutulma hallarının sayı 25% azaldı. Məhz Heydər Əliyevin tibb elminin inkişafına göstərdiyi xüsusi diqqət və qayğının nəticəsi olaraq, 1969-cu ildə İttifaq rəhbərliyi səhiyyə təşkilatları patofizioloqlarının növbəti, sayca beşinci Ümumittifaq konfransını məhz Bakıda keçirməyi qərara almışdı.

1970-ci ilin noyabr ayında ölkənin patofizioloqlarının nümayəndələri Bakıda toplaşdı. Artıq qurultay səviyyəsində keçirilən bu görüşdə xeyli xarici qonaq da iştirak edirdi. Heydər Əliyev qurultaya təbrik məktubu göndərdi və qurultay nümayəndələrindən bir qrupunu qəbul etdi. Onlar bu cür yüksək səviyyəli elmi forumun təşkil edilməsində və keçirilməsində göstərdiyi qayğıya görə Heydər Əliyevə təşəkkür etdilər (Kommunist qəzeti 1970-ci il, 5 noyabr). Azərbaycan səhiyyəsinin Ümumittifaq arenaya çıxması tezliklə gerçək bir praktikaya, sonra isə daimi fəaliyyət göstərən amilə çevrilərək, onun Ümumittifaq səviyyədə

tanınmasının və ehtiram qazanmasının sübutu oldu. İki ildən sonra SSRİ uroloqlarının birinci qurultayının harada keçirilməsi məsələsi Mərkəzdə müzakirə ediləndə Azərbaycanın paytaxtı bu məqsədlə ən optimal və üstün namizəd hesab edildi. 1974-cü ildə beynində qan dövranının keçici pozulmalarının qarşısının alınması və müalicəsi məsələlərinə həsr edilmiş Ümumittifaq simpoziumu da Bakıda keçirildi (ARPİİSSA, f.1, s.44, iş 11, v. 6). 1977-ci ildə oftalmoloqların Ümumittifaq elmi cəmiyyətinin plenumunun da Azərbaycanın paytaxtında keçirilməsi barədə qərar qəbul edilməsi yuxarıda deyilənləri bir daha sübut etdi.

Respublikamızın səhiyyəsi üçün xüsusi şərəf sayılan bir məsələ də ondan ibarət idi ki, bu sahədə keçirilən bir sıra Ümumittifaq sahə tədbirlərinin bir qismi nəinki Bakıda keçirilirdi, onlar ümumiyyətlə bu qəbildən ilk dəfə keçirilən tədbirlər idi. Məsələn, 1978-ci ildə hematoloqların və transfizioloqların Ümumittifaq elmi cəmiyyətinin birinci qurultayına hazırlıq və həmin qurultayın Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir. Bir il sonra SSRİ Tibb Elmləri Akademiyasının Tibbi Biologiya Elmləri bölməsinin sessiyasını ənənəyə görə Bakıda keçirmək barədə qərar qəbul edildi.

1980-ci il sovet nevrologiyasının tarixinə çox qeyri-ordinar bir hadisə ilə – nevroloqların İkinci Ümumittifaq qurultayının keçirilməsi barədə qərarla daxil olmuşdur. Həmin qurultay da Bakıda keçirildi.

1998-ci il sentyabr ayının 11-də artıq müstəqil dövlətimizin rəhbəri olan zaman Heydər Əliyev ATU-nun 11 mərtəbəli tədris binasının açılışında çıxış edərkən səhiyyədə olan problemlərlə bağlı neçə peşəkarcasına çıxış yolları axtarmaq bacarığını belə ifadə edirdi. “Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra Sovetlər İttifaqının, SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm. Mən o vaxt Sovetlər İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm Onkoloji Mərkəzin həm Kardioloji Mərkəzin, həm Ürək Cərrahiyyəsi Mərkəzinin, həm Oftolmoloji mərkəzlərinin, başqalarının yaranmasında, inkişaf etməsində, onların maddi-texniki bazalarının yaranmasında çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ Tibb Elmlər Akademiyasının 40 illik yubileyində Sovetlər İttifaqının rəhbərliyi adından iştirak etdim. Mən bir də bunları edərək o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım (Azərbaycan qəzeti, 12 sentyabr 1998-ci il). Səhiyyənin və tibb elminin inkişafı

üçün Heydər Əliyevin gördüyü tədbirlər əsaslı, yeni və genişmiqyaslı idi, bu tədbirlər dinamik xarakter daşıyırdı. Yenilik, islahat, inkişaf, qurmaq, yaratmaq bunlar Heydər Əliyevin fəaliyyətini xarakterizə edən əsas prinsiplər idi. Xüsusi qeyd edirik ki, Heydər Əliyev ilk dəfə olaraq Azərbaycanda bu sahəyə rəhbərlik təcrübəsinə əsaslanaraq SSRİ əhalisinin kütləvi şəkildə dispanserləşdirilməsi və səhiyyə sistemində iqtisadi islahatlar keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi.

Qeyd etmək lazımdır ki, adətən, bu və ya digər ölkədə səhiyyənin ümumi durumu həmin ölkədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının ortaya qoyduqları elmi nəticələrlə və bu nəticələrin insanın sağlamlığında nə kimi önəmli rol oynayacağı ilə müəyyən edilir. Elə bu səbəbdən də dünyanın hər yerində tibbin ayrı-ayrı sahələri üzrə araşdırmalar aparan elmi-tədqiqat institutlarının fəaliyyətləri ön plana çəkilir. Azərbaycanda elmi-tədqiqat institutları şəbəkəsinin genişləndirilməsi, onların yüksək hazırlıqlı elmi kadrlarla təmin edilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi Heydər Əliyevin daim diqqət mərkəzində duran məsələ olmuşdur. Onun bilavasitə təşəbbüsü ilə 1980-ci ildə Elmi-Tədqiqat Kardiologiya İnstitutunun, 1985-ci ildə Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun və 1994-cü ildə Artroloji Elmi Mərkəzin yaradılması buna misaldır. Məhz Heydər Əliyevin tövsiyəsi ilə Ailə Sağlamlıq Mərkəzinin istifadəyə verilməsi nəticəsində respublikamızda ilk dəfə olaraq genetikaya dair tədqiqatlar aparmaq mümkün olmuşdur.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda yüzlərlə iri müasir səhiyyə obyektləri inşa edildi, respublikada olan tibb müəssisələrinin yandan çoxu yenidən quruldu, ambulator-poliklinika şəbəkəsi genişləndirildi, daim geridə qalan kənd səhiyyəsi yüksək inkişaf səviyyəsinə çatdırıldı, Bakıda və respublikanın digər şəhərlərində ittifaq əhəmiyyətli yüksək ixtisaslaşmış yeni, müasir mərkəzlər istifadəyə verildi, tibb müəssisələri saysız-hesabsız miqdarda müasir cihaz və avadanlıqlarla, tibbi ləvazimatlarla təchiz edildi, ittifaqda və xarici ölkələrdə çoxsaylı və yüksək ixtisaslı elmi-tibbi kadrlar hazırlandı, Azərbaycan təbabət elmi sürətlə inkişaf etdi.

Əsası Kamil Balakişiyev tərəfindən qoyulmuş İnsan anatomiyası elmi XX əsrin 70-ci illərində daha da sürətlə inkişaf etmişdir. Ç. Ş. Hacıyev, M. S. Abdullayev, R. Ə. Əsgərov, V. B. Şadlinski, Ş. Q. Vəliyev və M. Q. Allahverdiyev anatomiya elminin zənginləşməsinə qiymətli töhfələr vermişdilər. Yalnız ATU-nun anatomiya kafedrasının əməkdaşları 1995-1998-ci illərdə 100-dən çox məqalə, 6 monoqrafiya 6 dərs vəsaiti çap etdirmişdilər (Əmiraslanov, İslamzadə, 2000). Daxili xəstəliklər sahəsində əsası Əziz Əliyev tərəfindən qoyulmuş tədqiqatlar akad. Cahangir Abdullayev, Tamerlan Əliyev və b. tərəfindən uğurla

davam etdirildi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Ə. Əliyevin hələ 1937-ci ildə çapdan çıxmış "Klinik analizlər" kitabında ilk dəfə olaraq sistemli şəkildə daxili xəstəliklərin təsnifi, qruplaşdırılması, tədqiqi, ilkin analizlərin təyini, müalicə üsullarını işlənib hazırlanması kimi çox vacib məsələlər qoyulmuşdur. Onun 1937-ci ildə yazıb nəşr etdirdiyi "Eksperimental nefrit" əsəri SSRİ EA-nın mükafatına layiq görülmüşdür. Onun oğlu T.Əliyev də bir sıra endokrionoloji xəstəliklərin, eləcə də şəkərli diabetin və onun damar fəsadlarının, xüsusilə aşağı ətraf damarlarının diabetik angiapatralarının, ürəyin işemik xəstəliklərinin (şəkərli diabet fonunda) patogenezini öyrənmiş və xəstəliyin erkən mərhələlərində müalicə üsullarını işləyib hazırlamışdır. Prof. T. Ə. Əliyevi 200-dən çox elmi işin, o cümlədən 8 monoqrafiyanın müəllifi olmuş, Respublika Dövlət mükafatına layiq görülmüş, Əməkdar elm xadimi adını almış, "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdu (İslamzadə, 1995). Heydər Əliyev M.A.Topçubaşovun xatirəsini əbədiləşdirmək üçün Elmi Cərrahlıq Mərkəzinə, Bakı şəhərinin küçələrindən birinə və ATU-nun III cərrahlıq kafedrasına onun adının verilməsi ilə bağlı sərəncam da vermişdir (Əmiraslanov, İslamzadə, 2000). Uşaq cərrahiyyəsi məsələləri uşaqlara sonsuz məhəbbət bəsləyən Heydər Əliyevin xüsusi olaraq diqqət nəzərində olmuşdur. O respublikaya rəhbərlik etdiyi bütün dövr ərzində bu sahə tibb elminin prioritet sahəsi səviyyəsinə yüksəldilmişdi. On gərə də 70-ci illərdən başlayaraq uşaq travmatizmi, yanıqlar, irinli plevrit, malyariya və skarlatinanın ağırlaşmaları, sulu xərçəng (koma), yeni doğulmuşların inkişaf qüsurları və s. problemlər xüsusi intensivliklə tətbiq edilmiş və uğurlu nəticələr əldə edilmişdir. Uşaq cərrahiyyəsində bir məktəb yaratmış İ.S.Ginzburqun və onun davamçıları olan Ə. M. Əlizadənin, B. S. Babaşovun, C. B. Quliyevin, A. M. Mustafayevin adlarını çəkmək lazımdır. Onlar uşaq cərrahiyyəsinin ən müxtəlif problemlərini araşdırmış və çox saylı mütəxəssislər yetirmişdilər. Məsələn, cərrahiyyənin çox aktual məsələlərinə həsr edilmiş monoqrafiya və məqalələrlə yanaşı (2003-cü ilədək prof. B. S. Babaşov 2 monoqrafiyanın 170 elmi məqalənin, prof. C. B. Quliyev 14 tədris metodiki vəsaitin, 100-dən artıq elmi məqalənin, 1 monoqrafiyanın, prof. A. M. Mustafayev 8 monoqrafiyanın 185 elmi əsərin, 8 metodik vəsaitin müəllifləri idilər və s.) C. B. Quliyevin rəhbərliyi altında 4 namizədlik dissertasiyası, A. M. Mustafayevin rəhbərliyi altında isə 1 doktorluq, 9 namizədlik dissertasiyası müdafiə edilmişdir (ATU-nun Cari Arxivi. 2003-cü il üçün elmi hesabatı, vər.102-103). Urologiya elmi M. Mirqasımov və M. Topçubaşovun tədqiqatları sayəsində formalaşmış, onun sonrakı inkişafı akad. Mirməhəmməd Cavadzadənin adı ilə bağlı olmuşdur. M. Cavadzadə Respublika Uroloji xəstəxanasının yaradılmasında mühüm rol oynamış, mürəkkəb cərrahı əməliyyatların həyata keçirilməsinə nail olmuşdur. Ulu öndər

Heydər Əliyevin yaxından köməyi ilə o 1982-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. M.Cavadzadə öz fundamental və təcrübi tədqiqatlarını "Sidik kisəsinin neyrogen disfunksiyaları (Moskva Medisina 1989, V. M. Derjavin, Y. E. Vişnevski ilə birlikdə), "Sidik-cinsiyyət sistemi orqanlarında cərrahi əməliyyat zamanı homeostaz (Moskva Medisina 1978, S. N. Linyor ilə birlikdə), "Böyrək və sidik axarları anomaliyalarının cərrahiyyəsi" (Moskva Mir Publishers, 1977, E. M. Şimkus ilə birlikdə, ingilis dilində) kimi böyük həcmli əsərlərində və çoxsaylı məqalələrində ümumiləşdirmişdir.

Urologiyanın tədrisində və tədqiqində 1975-ci ildə N.Nərimanov adına ATİ-də (hazırda ATU) yaradılmış Urologiya kafedrasının da müstəsna rolu olmuşdur. Yarandığı vaxtdan kafedra müdirləri professorlar N. Əfəndiyev və S.İmamverdiyevin rəhbərliyi altında nəhəng elmi iş aparılmışdır. Belə ki, 1975-ci ildən 2000-ci ilədək kafedra əməkdaşlarının 300-dən çox elmi məqaləsi, 10 monoqrafiyası, 2 dərsliyi çap edilmiş, 15-dən artıq ixtira və səmərələşdirici təkliflərinə müəlliflik şəhadətnaməsi alınmış, 10 namizədlik, 2 doktorluq dissertasiyası müdafiə edilmişdir (Əmiraslanov, İslamzadə, 2000, RPİİSSA, f.1, siy.16, iş 58, v. 74). Onkologiyanın elmi surətdə öyrənilməsinə 1941-ci ildə Bakıda Elmi Tədqiqat Onkologiya, Rentgenologiya və Radiologiya İnstitutunun (hazır ki Onkologiya Elmi Mərkəzi) yaradılması ilə başlanmışdır. ATU-da onkologiya kafedrasının əsası isə yalnız 1974-cü ildə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə qoyulmuşdur. Bundan əvvəl tələbələrə onkologiya haqqında müxtəsər məlumat verilir və tam onkologiya kursu aparılmırdı. Respublikada onkologiya üzrə praktik həkim hazırlamağın yeganə elmi bazası Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda 1946-cı ildə təşkil edilmiş onkologiya kafedrasındakı ixtisasartırma kursundan ibarət idi. 1974-cü ildə Azərbaycan SSR Nazirlər Sovetinin "Onkoloji xidmətin əsaslı surətdə yaxşılaşdırılması tədbirləri haqqında" qərarından (Əmiraslanov, İslamzadə, 2000). sonra təşkil edilmiş kafedrada həmin ilin sentyabr ayından etibarən mükəmməl dərs keçirilməyə başlamışdır. Kafedranın ilk müdiri prof. M.Abdullayev (1974-1990-cı illər), daha sonra prof. İ. Ağayev (1990-1992-ci illər) olmuşdur. 1993-cü ildən etibarən SSRİ Dövlət mükafatı laureatı (1986) Ə. Əmiraslanov kafedraya rəhbərlik edir. Rotosion plastika əməliyyatını keçmiş SSRİ-də ilk dəfə məhz Ə. Əmiraslanov yerinə yetirmişdir (ATU-nun Cari Arxivi. ATU-nun 2003-cü il üçün elmi hesabatı, vər. 117). Azərbaycanda onkologiya elminin inkişafında akad. Cəmil Əliyevin də mühüm xidməti olmuşdur. C.Əliyev respublikada ilk dəfə olaraq süd vəzinin, dərinin və yumşaq toxumların bəd və xoşxassəli yeni törəmələrinin epidemiologiyası, müalicəsi və reabilitasiyasını proqram olaraq işləyib hazırlamış və tətbiq etmişdir (Əmiraslanov, İslamzadə, 2000).

Heydər Əliyev uşaqların əyləncəsi, intellektual yetişmələri, ümumiyyətlə, sağlamlıqlarına xüsusi diqqət yetirirdi. Uşaqların profilaktikası və müalicəsi ilə məşğul olanları o hər zaman ruhlandırır onların fəaliyyətini xüsusi olaraq diqqət mərkəzində saxlayırdı. Respublikamızda pediatriyanın inkişafı istiqamətində müəyyən tarixi təcrübə olsa da onun hərtərəfli inkişafına 70-ci illərdən etibarən müstəsna qayğı göstərilmişdir. Ə. Qarayevdən, K. Fərəcovdan, S. Hacıyevadan, Ə. Cabbarzadədən, A. Ağayevadan, H. Cambəyov, V. Zeynalovdan və b.-dan ibarət formalaşmış elmi ənənə 70-ci illərdən başlayaraq M. Livanovun, Ə. Hacıyevin, İ. İsayevin, Ə. Namazovanın, N. Hüseynovanın, N. Quliyevin, L. Hüseynovanın, A. Əyyubovun, N. Tağıyevin və bir çox başqa pediatr alimlərinin məhsuldar elmi axtarışları nəticəsində daha da irəli getmişdir. Yüzlərlə məqalə, monoqrafiya, ixtira, səmərələşdirici təkliflərlə yanaşı tələbələr üçün dərsliklər də hazırlanmışdı. Belə ki, Azərbaycan SSR Dövlət Mükafatı laureatı (1982), SSRİ TEA-nın müxbir üzvü (1971) akademik A.Namazova 1972-ci ildə "Uşaq xəstəlikləri" dərsliyini, prof. L.Hüseynova 1982-1987-ci illərdə 3 cildlik "Uşaq xəstəlikləri" dərs vəsaitini çap etdirmişlər (III cild prof. T.Qurbanovanın iştirakı ilə yazılmışdır). Pediatriya sahəsində tədqiqatlar, əsasən, ATU-da və K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda aparılmışdır.

Mamalıq və ginekologiyanın inkişafında S. Nəzərlinin, A. Şaxtaxtinskayanın, A. Atayevin, M. Hacıqasımovun, F. İlyinin, Ə. Hüseynovun, M. Mahmudbəyovanın, F. Mehdiyevanın, Ş. Ələskərovanın (Sosialist Əməyi Qəhrəmanı 1969), N. Şəmsəddinskayanın, K. Qasımovanın, Z. Topçubaşovanın, A. Qurbanovanın və b.-nın mühüm xidmətləri olmuşdur. Onların sayəsində ginekoloji xəstəliklər uşaqlıq fibroması və uşaqlıqdan kənar hamiləlik, immun uyğunsuzluqla keçən hamiləlik və ailə sonsuzluğu, hamiləlik toksikozlarının profilaktikası, "risk qrupundan" olan qadınlarda hamiləliyin gedişi, doğuşun və zahılıq dövrünün xüsusiyyətləri və perinotal patologiyanın profilaktikası kimi ciddi elmi əhəmiyyət kəsb edən məsələlər tədqiq olunmuşdur.

Yoluxucu xəstəliklərə gəlincə 1995-ciilədək bu xəstəliklər üzrə Azərbaycan dilində dərslik yox idi, tələbələr bu fənni rus müəlliflərinin kitablarından və ya onların tərcümələrindən öyrənirdilər. Bu isə respublikamızın ölkə patologiyası üçün səciyyəvi olan bir sıra xəstəliklərin epidemiologiyasının, yayılma yollarının və diaqnostika üsullarının zəif öyrənilməsinə səbəb olurdu. Səhiyyə Nazirliyi rəhbərlərinə Heydər Əliyevin göstərişindən sonra N. N. Əliyevin "Yoluxucu xəstəliklər" kitabı 1995-ci ildə çapdan çıxaraq mövcud boşluğu doldurmuş oldu.

Respublikada nevrologiya və psixiatriya elmi də hər zaman Heydər Əliyevin diqqət

mərkəzində olmuşdur. Bu elm sahəsi hələ 20 əsrin 20-ci illərindən etibarən A.Perelman, A. Feyzullayev, S. Dovidonkov, M. Məlikov, S. Axindov və b.nın tədqiqatları ilə formalaşmağa başlamışdır. Sonrakı dövrlərdə bu elm sahəsi tədricən inkişaf etdirilmiş və 70-ci illərdən başlayaraq bu inkişaf daha intensiv xarakter almışdır. Z. Salayevanın, Y. Yunusovun, T. Qədirovanın, Ş. Mahalovun, Z. Əliyevin araşdırmaları nəticəsində nevrologiya elmi sahəsində mühüm nəticələr əldə edilmişdir. Təkcə əməkdar elm xadimi (1981) Z. Salayevə 70-80-ci illərdə 4 dərslik, 4 dərs vəsaiti, 3 monoqrafiya çap etdirmişdi (ATU-nun Cari Arxivi. N. Nərimanov akad. ATU-nın elmi fəaliyyətinin hesabatı, 1972-ci il v. 104). 70-ci illərdən etibarən respublikanın psixiatr-narkoloqlar tərəfindən daha çox şizofreniya, onun klinikası və terapiyası mərkəzi sinir sisteminin damar patologiyası, psixiatriya və immunologiya problemləri tədqiq olunmuşdur.

Vərəm xəstəliklərinin klinikası və müalicəsinə həsr olunmuş fiziotriya elmi də XX əsrin 20-ci illərindən başlayaraq inkişaf etməyə başlamışdır. 1923-cü ildə Bakıda ilk vərəm dispanseri fəaliyyətə başlamışdır. Yaqub Qazıyevin Azərbaycan dilində “Ağ ciyər vərəmi” dərsliyi və “Hamiləlik və vərəm” monoqrafiyasının nəşri bu elmin inkişafında mühüm rol oynamışdır. Sonrakı illərdə bu sahədə A. B. Pirverdiyev, B. B. Əhmədov, F. M. İsmayılov, Ə. B. İnsanov fərqlənmişlər.

1969-cu ildə ATU-da fiziatriya kursu əsasında sərbəst kafedra da təşkil edildi. Kafedra üzvlərinin sayı artırılaraq 1972-ci il üçün 16 nəfərə çatdırıldı (ATU-nun Cari Arxivi. N. Nərimanov akad. ATU-nın elmi fəaliyyətinin hesabatı, 1972-ci il v. 104). 1970-ci illərdən başlayaraq artıq müalicə-profilaktika fakültəsinin IV və VI kurs, digər fakültələrin IV kurs tələbələrinə fiziotriya dərsi keçirilirdi. 1973-cü ildə bu kafedra Elmi-Tədqiqat Vərəm İnstitutunun yerləşdiyi 4 №-li vərəm dispanserinin binasında klinik baza ilə təmin edildi. Elə həmin ildə B.B.Əhmədovun “Ağ ciyər vərəmi” adlı Azərbaycan dilində dərs vəsaiti çap edildi (ATU-nun Cari Arxivi. N. Nərimanov akad. ATU-nın elmi fəaliyyətinin hesabatı, 1995 və 2000-ci illər üçün hesabat, v. 11; v. 46). Sonrakı illərdə də aparılan elmi tədqiqat işlərinin nəticələri bir sıra monoqrafiyalarda öz əksini tapdı. Bunlardan Ə. B. İnsanovun “Pnevmoniya” (1992), “Xronik ağciyər vərəminin immunokimyəvi müalicəsi” (rus dilində 1994), Bronxial asma (1990 rus dilində), F.M.İsmayılovun “Vərəm və onun profilaktika “üsulları (1994), “Müasir metodlarla vərəmin müalicəsi” (1996), F. S. Quliyevin “Ağciyərdənkənar vərəm” (1994) və s. göstərmək olar.

Azərbaycanda oforinolorinoqologiya (burun, boğaz, qulaq xəstəlikləri) elmi M. Hüseynov, A. Şıxlinski, Y. Qasımov b.b. adı ilə bağlıdır. Həm təbii həm də sənaye amillərinin

təsiri nəticəsində əmələ gələn xəstəliklərin klinikası və müalicəsi məsələsi bir heçə dəfə Heydər Əliyevin təşəbbüsü ilə AKP MK-nın bürosunda və Azərb.SSR Nazirlər Sovetində müzakirə edilmişdir. İlk növbədə, bu sahədə tələbələrin dərsliyə olan ehtiyacını ödəmək üçün dərslik çap etmək qərara alındı və 1972-ci ildə Y. Ə. Qasımovun müəllifliyi ilə Azərbaycan dilində “Burun, qulaq və boğaz xəstəlikləri” dərsliyi nəşr edildi. Bu dərslik tələbələr və həkimlər arasında o qədər böyük nüfuz qazandı ki, o, 1980-ci ildə böyük tirajla təkrar nəşr edildi. Məlumdur ki, respublikada ənənəvi oftalmoloji məktəbin ən istedadlı müdavimlərindən biri də Zərifə Əliyeva olmuş və özü yeni bir elmi məktəb yarada bilmişdir.

Z. Əliyeva Azərbaycanda ideologiyanın (gözün bucağındakı rənglə diaqnoz qoymaq) banisi olmaqla bu sahədə elmi məktəb yaratmışdır. Z. Əliyevanın doktriologiyadan bəhs edən “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahı üsullarla müalicəsi” monoqrafiyaları həm də fizioloq mütəxəssislər tərəfindən rəğbətlə qarşılanmışdır. Müxtəlif ictimai vəzifələrdə də çalışan Z. Əliyeva Moskvada çıxan “Vestnik oftolmologii” – jurnalında redaksiya heyətinin üzvü idi. 1969-cu ildən başlayaraq respublikada nisbətən zəif ənənəsi olan epidemiologiya, hematologiya, transfuziologiya, əczaçılıq elminin inkişafında da mühüm irəliləyişlər əldə edilmiş, müstəqillik illərində isə bu proses daha böyük vüsətlə davam etdirilmişdir.

Tibb elminin real mənzərəsini canlandırmaq istiqamətində göstərdiyimiz faktlar və apardığımız təhlillər bir daha sübut edir ki, Heydər Əliyevin rəhbərliyi ilə 70-80-ci illərdə tibb elminin və bütövlükdə səhiyyənin inkişafı sahəsində əldə edilmiş nailiyyətlər postsovet dövründə həyata keçirilən tədbirlərin əsasını təşkil etmişdir. Məhz onun uzaqgörənliyinin və titanik əməyinin bəhrəsi olan nəhəng miqyaslı işlərin nəticəsində Azərbaycan müstəqillik əldə etdikdən sonra yaranmış ağır iqtisadi şəraitdə də səhiyyəmiz məhz həmin möhkəm təməlin əsasında, həmin yüksək ixtisaslı tibbi kadrları, möhkəm maddi-texniki bazası, tibbi cihaz və avadanlıqları ilə fəaliyyət göstərmiş, uğurla tərəqqi etmiş və bu gün xalqımızın sağlamlığının elmi və texniki əsasına çevrilmişdir.

İmmunoprofilaktika sahəsində iş, əslində dayandırılmış, infeksion xəstəliklərin qalıq ocaqları kəskin şəkildə fəallaşmış, epidemiyalar başlamış, əhaliyə hamılıqla və pulsuz tibbi yardım göstərilməsi sistemi tədricən dağılmış, elmi-tədqiqat institutlarının fəaliyyəti zəifləmiş, elmi-tədqiqat işlərinin keyfiyyəti xeyli aşağı düşmüş, dissertasiya müdafiə etmək istəyənlərin sayı yox dərəcəsinə qədər azalmış, bütövlükdə Azərbaycan səhiyyəsi və tibb elmi dərin böhran vəziyyətinə düşmüşdü. Yalnız, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra vəziyyətin qiymətləndirilməsinə dair səylər göstərildi, səhiyyənin

uzunsürən, dərin böhrandan çıxarılması üçün yollar axtarılmasına başlandı və ölkə rəhbərinin bilavasitə rəhbərliyi, məxsusi diqqəti və dəstəyi ilə ardıcıl və məqsədyönlü olaraq konkret tədbirlər həyata keçirildi.

Respublika səhiyyəsinin mövcud potensialından maksimum səmərə ilə istifadə etməklə əhalinin sağlamlığının qorunması işini yaxşılaşdırmaq məqsədilə ölkə rəhbəri Heydər Əliyevin göstərişinə uyğun olaraq, səhiyyədə geniş islahatlar proqramı işlənib hazırlandı və müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Onun Azərbaycan Respublikasında "Səhiyyə sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə" 13 mart 1998-ci il tarixli sərəncamı (Əmiraslanov, İslamzadə, 2000). bu işin daha geniş miqyasda və sürətlə aparılması üçün şərait yaratdı. Respublikamızda bir sıra beynəlxalq elmi məclislərin keçirilməsi də Azərbaycan təbabət elminin inkişafında xüsusi rol oynamışdır. Belə ki, 1997-ci ilin oktyabrında Azərbaycan ftiziatrlarının I qurultayının keçirilməsi çox mühüm hadisə olmuşdur. Bu qurultayda respublikada vərəmlə mübarizə üzrə proqram qəbul edilmişdir. Qurultayın işində Ümumdünya Səhiyyə Təşkilatının Rusiya, Gürcüstan və Qırğızıstandan olan nümayəndələri iştirak etmişlər (Cabbarov, 1994). Şəkərli diabet sahəsində də səmərəli əməkdaşlıq davam etdirilmişdir. Azərbaycan Sent-Vinsent deklarasiyasını qəbul etmiş və böyük uğurla onu həyata keçirir. 1996-cı ilin payızında Bakıda diabet üzrə Ümumdünya Səhiyyə Təşkilatının konfransı keçirilmişdir. 1997-ci ilin mayında Bakıda Avrasiya Beynəlxalq Qastroenteroloji Konqresi keçirilmiş, Konqresin qiymətli elmi materialları, dəyərli tədqiqatlar dünya ictimaiyyətinin diqqətini cəlb etmişdir.

1997-ci ildə Bakıda keçirilən Pediatrların IV Beynəlxalq Konqresi (Əmiraslanov, İslamzadə, 2000). pediatriya elmi sahəsində, eləcə də respublikamızın tarixində parlaq bir hadisəyə çevrildi. Dünya şöhrətli alim İhsan Doğramacının sədrlik etdiyi həmin konqresdə respublikamızın Prezidenti Heydər Əliyevin şəxsən iştirak etməsi, səhiyyəmiz üçün yeni proqram-sənədə çevrilən tarixi nitqi, səhiyyə işçilərinin fədakar əməyinə verdiyi yüksək qiymət, konkret və ciddi tapşırıqları, dəyərli tövsiyələri qarşıya yeni və daha məsul vəzifələr qoydu.

**Nəticə**

Səhiyyəmizin və təbabət elmimizin inkişafında cəfakeşlik göstərən tibb işçilərinin fədakar əməyi Heydər Əliyev tərəfindən daim yüksək qiymətləndirilmişdir. Belə ki, onun 17 iyun 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Tibb Universitetinin 70 illiyi münasibətilə elm, təhsil və səhiyyə sahələrində xidmətlərinə görə Universitetin 9 əməkdaşı "Şöhrət" ordeni, 15 əməkdaşı "Tərəqqi" medalı ilə təltif edilmiş, 14 əməkdaşa "Əməkdar elm xadimi", 15

əməkdaşa "Əməkdar müəllim", 17 əməkdaşa "Əməkdar həkim" fəxri adlan verilmişdir (Azərbaycan qəzeti, 14 mart 1998-ci il). Həmçinin ölkə Prezidentinin 2 noyabr 2000-ci il tarixli fərmanı ilə Səhiyyə Nazirliyinin yaradılmasının 80 illiyi ərəfəsində səhiyyə işçilərinin böyük bir qrupu yüksək dövlət mükafatları ilə mükafatlandırılmış, o cümlədən, 5 nəfər "Şöhrət" ordeni, 25 nəfər "Tərəqqi" medalı ilə təltif edilmiş, 8 nəfərə "Əməkdar elm xadimi", 34 nələrə "Əməkdar həkim" fəxri adları verilmişdir (Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Cari Arxivi, f.1, siy.4, iş 16, v. 31). Heydər Əliyevin qayğısı nəticəsində MDB dövlətləri arasında və dünya səhiyyə sistemində Azərbaycan səhiyyəsinin və təbabət elminin nüfuzu sürətlə artdı. Azərbaycan bütövlükdə dünyaya inteqrasiya olunmaqla onun səhiy¬yəsi dünya səviyyəsində özünün layiqli yerini tutan və qiymətini alan bir struktura çevrilməyə başladı. Təsadüfi deyil ki, 1998-ci il mayın 11-dən 16-dək keçiri¬lən Dünya Səhiyyə Təşkilatının ali orqanının sessiyasında ölkəmizdə sə¬hiyyə sahəsində aparılan islahatlar yüksək qiymətləndirilmiş və Azərbaycana göstərilən yardımın 1999-cu ildən etibarən üç dəfə artırılması qərara alınmış, Azərbaycan Respublikasının Səhiyyə naziri Dünya Səhiyyə Təşkilatının Baş Assambleyasının vitse-prezidenti seçilmişdir. Bu, həmin təşkilat tərəfindən respublika səhiyyəsi üçün ayrılan yar¬dımların daha da artmasına real zəmin yaratmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, MDB dövlətlərinin səhiyyə sahəsində əməkdaşlıq üzrə şurasında Azərbaycan Respublikasında səhiyyədə aparılan uğurlu islahatlar və əldə edilən müvəffəqiyyətlərə görə Səhiyyə Nazirliyinin rəhbərliyi "Qızıl Medal"a layiq görülmüşdür.

Ölkəmizdə səhiyyə sahəsində aparılan islahatların uğurlu nəticələri 2002-ci ildə Qafqazda yoxlamalar aparan Amerika Departamentinin xüsusi inspektorları tərəfindən də yüksək qiymətləndirilmişdir. İnspektorlar qeyd etmişlər ki, Qafqazda Bakı yeganə şəhərdir ki, dünya standartları səviyyəsində tibb müəssisələri yaradılır və bunun geniş şəbəkəsi inkişaf etməkdədir.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan səhiyyəsində aparılan islahatlar nəticəsində əhaliyə göstərilən tibbi xidmətin xeyli yaxşılaşdırılması, səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, əsas dərmanlarla təchizinin təmin edilməsi, kadrların ixtisaslarının artırılması, tibb müəssisələrinin böyük bir qismində təmir və yenidənqurma işlərinin aparılması, özəl təbabət sisteminin tədqiq edilməsi və özəl tibb müəssisələrinin yaradılması, Avropa və dünya standartlarına cavab verən tibb müəssisələrinin əhalinin istifadəsinə veril-məsi, əhalinin sağlamlıq və səhiyyə göstəricilərinin xeyli yaxşılaşması ilə yanaşı, Azərbaycan təbabət elmi də sürətlə inkişaf etmiş, mühüm elmi nailiyyətlər əldə olunmuşdur. Xatırladaq ki,

XXI əsrin gəlməsi ilə dünyada yeni eranın başlanğıcı qoyulmuşdur. Hər bir sahədə olduğu kimi tibb sahəsində də yeniləşmə prosesinin reallığa çevriləcəyi şəksizdir. İnamla söyləmək olar ki, bütün zamanlarda sınaqlardan uğurla çıxan Azərbaycan səhiyyəsi Heydər Əliyevin rəhbərliyi ilə yeni eranın sınaqlarına hazırlanmış və bu zəfər estafeti İlham Əliyevin prezidentliyi dövründə daha uğurla davam etdirilmişdir.

**Ədəbiyyat**

Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi

ARPİİSSA), f.1, s.26, iş 109, v.11.

ARPİİSSA, iş 26, v.71.

(1970, 5 noyabr). *Kommunist qəzeti.*

ARPİİSSA, f.1, s.44, iş 11, v. 6.

(1998, 12 sentyabr). *Azərbaycan qəzeti.*

Əmiraslanov, Ə. T., İslamzadə, F. İ. (2000). *Azərbaycan Tibb Universiteti.* Təbib nəşriyyatı.

İslamzadə, F. İ., Əliyev, (1995). *Topçubaşovun həyatı və əsərləri haqqında biblioqrafik məlumat.* Təbib,

ATU-nun Cari Arxivi. 2003-cü il üçün elmi hesabatı.

ATU-nun Cari Arxivi. N. Nərimanov akad. ATU-nın elmi fəaliyyətinin hesabatı, 1972-ci il v.104

Cabbarov, M. S. (1994). Sosial gigiyena və səhiyyənin təşkili. Təbib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Cari Arxivi, f.1, siy.4, iş 16, v. 31

ARSNCA, f.1, siy. 52, iş 11, v.54

(2000, 18 iyun). *Azərbaycan qəzeti.*

(2000, 3 noyabr). *Azərbaycan qəzeti.*